# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ərazi vahidlərinin, inzibati ərazi dairələrinin və sahə inzibati ərazi dairələrinin xəritələrinin hazırlanması Qaydası"nın təsdiq edilməsi haqqında" 2010-cu il 10 fevral tarixli 218 nömrəli, "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin icrasının təmin edilməsi barədə" 2010-cu il 24 may tarixli 272 nömrəli, "Xüsusi təyinatlı təhsil müəssisələrinin təsis edilməsi Qaydaları"nın və "Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı"nın təsdiq edilməsi haqqında" 2010-cu il 24 may tarixli 274 nömrəli, "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə" 2011-ci il 15 fevral tarixli 382 nömrəli, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2011-ci il 30 sentyabr tarixli 201-IVQD nömrəli Qanununun tətbiqi barədə" 2011-ci il 26 dekabr tarixli 566 nömrəli, "Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli 27 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları"nda dəyişikliklər edilməsi barədə" 2012-ci il 10 fevral tarixli 590 nömrəli və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsinin qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında", "Maliyyə-sənaye qrupları haqqında" və "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 621-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 218 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 82; 2013, № 2, maddə 118; 2016, № 2 (II kitab), maddə 248; 2017, № 11, maddə 2026; 2022, № 8, maddə 871) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi vahidlərinin, inzibati ərazi dairələrinin və sahə inzibati ərazi dairələrinin xəritələrinin hazırlanması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.2-ci bənddə "Əmlak Məsələləri Dövlət Komitəsi (bundan sonra - ƏMDK)" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (bundan sonra- ƏMDX)" sözləri ilə əvəz edilsin;

1.2. 4.1-ci bənddə, 4.2-ci bəndin birinci (hər iki halda) və ikinci cümlələrində, 5.6-cı (hər iki halda), 5-1.3-cü, 5-1.4-cü (hər iki halda), 7.1-ci, 8.2-ci, 8.3-cü və 8.6-cı (hər iki halda) bəndlərdə ismin müvafiq hallarında "ƏMDK" akronimi ismin müvafiq hallarında "ƏMDX" akronimi ilə əvəz edilsin;

1.3. 4.2-ci bəndin birinci və ikinci cümlələrində, 5.6-cı (hər iki halda) və 5-1.4-cü bəndlərdə ismin müvafiq hallarında "ərazi bölməsi" sözləri ismin müvafiq hallarında "ərazi şöbələri" sözləri ilə əvəz edilsin;

1.4. 5.7-ci bənddə "ƏMDK-nin sədri" sözləri "ƏMDX-nin rəisi" sözləri ilə, "ƏMDK-nin" sözləri "ƏMDX-nin" sözləri ilə ilə əvəz edilsin;

1.5. 8.8-ci bənddə "ƏMDK" akronimi "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri lə əvəz edilsin.

2. "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 272 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 401; 2012, № 11, maddə 1086; 2013, № 5, maddə 499; 2015, № 9, maddə 998; 2018, № 11, maddə 2243; 2019, № 3, maddə 417, № 5, maddələr 820, 826; 2021, № 1, maddə 38) 1.2-ci və 1.11-ci bəndlərində "Əmlak Məsələləri Dövlət Komitəsinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 274 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 403, № 7, maddə 619; 2012, № 5, maddə 422, № 12, maddə 1233; 2014, № 5, maddə 483; 2016, № 9, maddə 1476; 2017, № 12 (I kitab), maddə 2307; 2021, № 2, maddə 123; 2022, № 3, maddə 213) ilə təsdiq edilmiş "Xüsusi təyinatlı təhsil müəssisələrinin təsis edilməsi Qaydaları"nın 4.8-ci bəndində "Əmlak Məsələləri Dövlət Komitəsinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin.

4. "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 382 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 86; 2016, № 2 (II kitab), maddə 245; 2021, № 1, maddə 38, № 6 (I kitab), maddə 571) 1.6 - 1.9-cu, 1.11-ci və 1.12-ci bəndlərində "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

5. "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2011-ci il 30 sentyabr tarixli 201-IVQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 26 dekabr tarixli 566 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1141; 2017, № 6, maddə 1107) 3-cü hissəsində "Əmlak Məsələləri Dövlət Komitəsinə tapşırılsın ki," sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

6. "Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli 27 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları"nda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 10 fevral tarixli 590 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 79) 3-cü hissəsində "Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddələr 477, 487, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 11, maddə 1322, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659, № 7 (I kitab), maddə 1462, № 10, maddə 2017, № 12 (I kitab), maddələr 2538, 2596; 2019, № 3, maddə 406, № 4, maddə 655, № 5, maddələr 820, 826, 848, 852, 857, № 6, maddə 1037, № 12, maddə 1936; 2020, № 1, maddə 7, № 8, maddə 1039, № 10, maddə 1247; 2021, № 1, maddələr 16, 36, № 6 ( I kitab), maddə 567, № 11, maddə 1211, № 12, maddə 1367; 2022, № 1, maddə 29, № 4, maddələr 302, 323, № 5, maddə 475) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.11.8-ci yarımbəndində "Əmlak Məsələləri Dövlət Komitəsini" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətini" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2022-ci il*

Azərbaycan. - 2022.- 29 dekabr.- S.7.